**Pedaqoji Universitetin Xəbərləri.** Riyaziyyat və təbiət elmləri seriyası – 2025, C. 73, №3, s. 90-109
**Transactions of Pedagogical University.** Series of mathematics and natural sciences – 2025, V. 73, №3, pp. 90-109

***UOT 911.3***

***H.M.Tahirova***
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi,*
*akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu*
*hicran.tahirova@mail.ru*

# ŞİRVAN-SALYAN İQTİSADİ RAYONUNUN KƏNDLƏRİ VƏ KƏND ƏHALİSİNİN MƏSKUNLAŞMASI

https://doi.org/10.30546/2520-2049.73.3.2025.049

***Açar sözlər:*** *iqtisadi rayon, inzibati rayon, kənd əhalisi, kənd məskunlaşması, kənd qrupları, məskunlaşma sistemi, yüksəklik arealı*

Şirvan-Salyan iqtisadi rayonunda kənd yaşayış məntəqələrinin və kənd əhalisinin məskunlaşma sisteminin formalaşmasında önəmli rol oynadığını nəzərə alaraq kənd qrupları və onlarda məskunlaşan əhalinin sayının 20 il (1999-2019-cu il) müddətində dəyişilməsi təhlil edilmişdir. 20 il müddətində iqtisadi rayonun kəndlərinin sayı 8 kənd azalmışdır. Həmçinin bu təhlil inzibati rayonlar üzrə də aparılmış, hər bir rayonun inzibati quruluşunda baş verən dəyişikliklər və onların səbəbləri araşdırılmışdır. 2019-cu ildə iqtisadi rayonda kəndlərin 45,9%-nin əhalisinin sayı 500-2000 nəfər arasında dəyişmişdir. Bu kəndlərdə iqtisadi rayonun kənd əhalisinin 30,3%-i məskunlaşmışdır. Əhalisi 500-2000 nəfər olan kəndlərin sayı iqtisadi rayonun ümumi kəndlərinin təqribən ½-i qədər olsa da, onlarda məskunlaşan əhali ümumi kənd əhalisinin 1/3-ni təşkil edir. Bu isə kəndlərdə əhali sayının minimum həddə daha yaxın olduğunu göstərir.

İqtisadi rayonun kənd yaşayış məntəqələrinin qeyri-bərabər məskunlaşmasında təbii və iqtisadi coğrafi amillər xüsusi rol oynayır. Belə ki, iqtisadi rayon düzənlikdə yerləşdiyinə görə böyük kəndlərin formalaşmasında su hövzələri (çaylar, kanallar və s.), magistral yollara və inzibati rayon mərkəzinə yaxınlıq mühüm əhəmiyyət kəsb edir. Ümumiyyətlə, kənd qrupları və onlarda məskunlaşan əhalinin sayının on illiklər üzrə təhlili burada kəndlərin və əhalinin sayında baş verən dəyişiklikləri öyrənməklə yanaşı, sosial-iqtisadi və demoqrafik göstəricilərin də inkişafını tədqiq etməyə imkan verir.

***Х.М.Таирова***

## СЕЛА И РАССЕЛЕНИЕ СЕЛЬСКОГО НАСЕЛЕНИЯ ШИРВАНО-САЛЬЯНСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА

***Ключевые слова:*** *экономический район, административный район, сельское население, сельское расселение, группы сел, система расселения, ареал высот*

Учитывая, что в формировании системы расселения Ширван-Сальянского экономического района важную роль играют сельские населенные пункты и сельское население, были проанализированы изменения численности сельских групп и численности населения, проживающего в них за 20-летний период (1999-2019 гг.). За последние 20 лет количество сельских поселений в экономическом районе сократилось на 8 сел. Данный анализ также проводился по административным районам, и были рассмотрены изменения в административной структуре каждого района и их причины. В 2019 году численность населения 45,9% сел экономического района составляла от 500 до 2000 человек. В этих селах проживало 30,3% сельского населения экономического района. Хотя число сельских населенных пунктов с численностью населения 500–2000 человек составляет примерно ½ от общего числа сел экономического района, проживающее в них население составляет 1/3 всего сельского населения. Это говорит о том, что численность населения в селах близка к минимуму.

Особую роль в неравномерности размещения сельских населенных пунктов экономического района играют природные и экономико-географические факторы. Поскольку экономический район расположен на равнине, большое значение в формировании крупных населенных пунктов имеет близость к водоемам (рекам, каналам и т.п.), автомобильным дорогам, административному центру района. В целом, десятилетний анализ сельских групп и численности проживающего в них населения позволяет изучить не только изменение численности сел и населения, но и динамику социально-экономических и демографических показателей.

***H.M.Tahirova***

## VILLAGES AND RURAL POPULATION SETTLEMENT OF THE SHIRVAN-SALYAN ECONOMIC REGION

***Keywords:*** *economic region, administrative district, rural population, rural settlement, village groups, settlement system, altitudinal zonation*

Considering that rural settlements and villages play a pivotal role in forming the settlement system in the Shirvan-Salyan economic region, changes in the village groups and population dynamics in the villages during 2 decades (1999 to 2019) were analyzed in the research. Moreover, this research was conducted by various administrative districts including the region, and the changes in the administrative structure and their causes were investigated as well. In 2019, the population in 45,9% of the villages including the region was between 500 and 2000. 30,3% of the population was populated in these villages. Although half of the villages were accounted for by the villages with a population numbered between 500 and 2000, one-third of the rural population settle in these villages. This indicates that the number of rural population is close to the minimum level.

Natural and economic factors have a special role in the disproportionate settlement of the rural places of the economic region. To be more precise, since the economic region occupies the plain areas, proximity to water bodies (rivers, irrigation canals, etc., highways, and district centers have a great importance for the formation of large villages. Considering all, the investigation of the village groups and the number of population in these villages by decades makes the ways for researching the development of the socioeconomic and demographic indication, along with studying the alteration in the villages and population.

## Giriş

Son illər ölkədə qeyri-neft sektorunun inkişafı qarşıda duran əsas prioritet məsələlərdən biridir. Azərbaycan aqrar ölkə olduğu üçün qeyri-neft sektorunun əsas tərkib hissəsi kənd təsərrüfatı hesab olunur. Kənd təsərrüfatının inkişafında kənd əhalisi və kənd məskunlaşması xüsusi rol oynayır. Bu baxımdan kənd əhalisinin və kənd yaşayış məntəqələrinin tədqiqi aktual hesab olunur. Həmçinin kənd əhalisi və kəndlərin məskunlaşması ölkənin sosial-iqtisadi, demoqrafik və ekoloji inkişafında mühüm rol oynayır. Ölkə əhalisinin 45,5%-i 4244 kənddə məskunlaşmışdır. Respublikanın iqtisadi rayonlarında (Bakı,

Gəncə-Daşkəsən və Abşeron-Xızı istisna olmaqla) kənd əhalisi üstünlük təşkil edir. Şirvan-Salyan iqtisadi rayonu da kənd əhalisinin və iri kənd yaşayış məntəqələrinin üstünlük təşkil etdiyi regionlardan biridir. İqtisadi rayonda təbii coğrafi şəraitin dəyərləndirilməsi, kənd təsərrüfatının ərazi təşkili, demoqrafik və ekoloji balansın dayanıqlı inkişafının təmin olunması, sosial-mədəni dəyərlərin qorunması, infrastrukturun yaxşılaşdırılması və s. kimi məsələlərin həllində kənd əhalisinin və kənd məskunlaşmasının öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, kəndlərdə əhalinin sayının artıb azalması və kənd məskunlaşmasının formalaşması bu məsələlərdən bir başa asılıdır. Bütün regionlarda kəndlərin məskunlaşması yüksəklik qurşaqları üzrə fərqlənir. Bu fərqi əsasən regionun təbii-coğrafi şəraiti yaradır. Belə ki, respublikada düzənlik və alçaq dağlıq ərazilərdə kəndlərin sıxlığı daha çoxdur. Lakin dünyanın texnoloji cəhətdən yüksək inkişaf etmiş regionlarında əhalinin məskunlaşmasında yüksəklik qurşaqları o qədər də rol oynamır [16, s.36-43].

Kəndlərin əhalinin sayına görə qruplaşdırılması kəndlərdə əhalinin sayını, sıxlığını və məskunlaşmanın inkişaf səviyyəsini müəyyən etməyə imkan verir. Buna görə də məqalədə iqtisadi rayonun kəndləri yüksəklik qurşaqları və kənd qrupları (əhalinin sayı üzrə) üzrə araşdırılacaq və məskunlaşmada əsas rol oynayan amillər müəyyənləşdiriləcəkdir.

## Material və metod

Tədqiqat işində məqsəd 1999-2019-cu illərdə Şirvan-Salyan iqtisadi rayonunda kəndlərin və kənd əhalisinin yüksəklik qurşaqları və kənd qrupları üzrə məskunlaşmasında baş verən dəyişiklikləri araşdırmaqdır. Bu araşdırma zamanı müqayisəli təhlil, riyazi-statistik, sistem-struktur və s. kimi metodlardan istifadə olunmuşdur. Əsas mənbə kimi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin siyahıyaalma (1999, 2009, 2019) materiallarından istifadə olunmuşdur.

Azərbaycan tədqiqatçılarından Ə.M.Hacızadə (1965), Ş.Y.Göyçaylı (1987), Mehrəliyev E.Q. (1988), Sadıqov M.O. (1988), Z.N.Eminov (2005), R.N Kərimov (2015), N.H.Əyyubov (2018), H.M. Tahirova (2023) və digərlərinin kənd məskunlaşması və onun formalaşmasına təsir edən amillər, kəndlərin yüksəklik qurşaqları üzrə yerləşməsi, kəndlərin morfoloji-genetik quruluşu və demoqrafik şəraiti, ayrı-ayrı iqtisadi rayonlar üzrə kənd əhalisinin məskunlaşmasına dair yazılmış tədqiqat əsərlərini mühüm mənbə kimi göstərmək olar.

1988-ci ildə E.Q. Mehrəliyev, N.H. Əyyubov və M.O. Sadıqovun birlikdə yazdığı "Azərbaycan SSR-də əhalinin məskunlaşması məsələləri" adlı kitabda Muğan-Salyan iqtisadi rayonunda (Biləsuvar, Neftçala, Saatlı, Sabirabad,

Salyan rayonlarını və Şirvan şəhərini əhatə edirdi) kəndlərin əhali sayına görə qruplaşması və s. verilmişdir. Sonrakı illərdə də Şirvan-Salyan iqtisadi rayonuna daxil olan inzibati rayonların kəndləri Aran iqtisadi rayonunun tərkibində ümumi formada tədqiq olunmuşdur. Lakin 2021-ci ildə yeni yaradılan Şirvan-Salyan iqtisadi rayonunun kəndləri və kənd əhalisinin məskunlaşması ilk dəfə tərəfimizdən tədqiqat işi kimi yazılmışdır.

## Təhlil və müzakirə

Şirvan-Salyan iqtisadi rayonu 2021-ci ildə yaradılmışdır. İqtisadi rayon şimaldan Dağlıq Şirvan, Abşeron-Xızı, şimal-şərqdən Bakı, cənubdan Lənkəran-Astara, qərbdən Mil-Muğan, şimal-qərbdən Mərkəzi Aran iqtisadi rayonları ilə həmsərhəddir. Şərqdən isə Xəzər dənizi ilə əhatələnmişdir. Sahəsi 6,08 min $km^2$, əhalisi 494,8 min nəfərdirn [6, s.69]. İqtisadi rayonun ümumi əhalisinin 53,3%-i kənd əhalisindən ibarətdir. Azərbaycan Respublikasının kənd yaşayış məntəqələrinin 3,4%-i, kənd əhalisinin isə 10,7%-i Şirvan-Salyan iqtisadi rayonunun payına düşür. İqtisadi rayonda kəndlərin sayı 146, kənd əhalisinin sayı isə 263,5 min nəfərdir. İqtisadi rayon kənd əhalisinin sayına görə respublika üzrə 9-cu yerdə, kəndlərin sayına görə isə 11-ci yerdə durur. İqtisadi rayonda hər 1000 $km^2$-ə düşən kəndlərin sayı 24 olub respublika göstəricisindən (49,1) 2 dəfə aşağıdır. Kəndlərin orta böyüklüyü isə 1804 nəfər olub orta respublika səviyyəsindən (1083 nəfər) yuxarıdır. İqtisadi rayonun kəndlərinin sayı 1999-2009-cu illər arasında 8 kənd azalmışdır, sonrakı on illikdə isə sabit qalmışdır. Kəndlərin azalmasına səbəb onların qəsəbələrə çevrilməsi, birləşdirilməsi və ləğv edilməsi olmuşdur. Onlara Neftçala rayonunun Mirqurbanlı, Günəşli, Söyüdlü, Neftçala stansiyası (Həsənabad qəsəbəsinə birləşdirilmişdir), Salyan rayonunun Qirx Çıraq (qəsəbəyə çevrilmişdir), Hacıqabul rayonunun Padar, Navahi və Pirsaat kəndləri (qəsəbəyə çevrilmişdir) aiddir.

İqtisadi rayon əsasən respublikanın cənub-şərq hissəsində Xəzər dənizinin sahilində yerləşmişdir. Relyefi düzənlik ərazilərdən ibarətdir. İqtisadi rayonun ərazisi Cənub – Şərqi Şirvan və Salyan düzlərinin tamamını, Şirvan və Muğan düzlərinin isə bir hissəsini əhatə edir. İqtisadi rayon düzənlikdə yerləşsə də burada bir sıra tirə və təpəliklər də mövcuddur. Salyan inzibati rayonunda Mişovdağ, Kürsəngi təpələri, Neftçalada Duzdağ və Dirovdağ (200 m) təpələri, Hacıqabulda Böyük Hərəmi silsiləsi vardır. Cənub-Şərqi Şirvanda çoxlu sayda palçıq vulkanlara rast gəlinir [13].

Ümumiyyətlə, yaşayış məntəqələrinin salınması və onların təsərrüfat strukturunun formalaşmasının ilkin mərhələsində təbii-coğrafi amillərin rolu böyük olsa da, sonrakı mərhələdə sosial-iqtisadi və mədəni amillərin rolu artır.

İqtisadi rayonda da əhalinin məskunlaşması prosesində kənd təsərrüfatı məhsullarının becərilməsi və onların emalı iqtisadi baza rolunu oynayır. Burada əmək tutumlu kənd təsərrüfatı sahələrinin olması kənd məskunlaşmasının davamlı inkişafında uzun illər öz təsirini göstərmişdir [7, s.213].

İqtisadi rayonun kənd yaşayış məntəqələrinin 39,2%-i (Neftçala rayonunun 30 kəndi və Salyan rayonunun 28 kəndi) Salyan düzündə, 25,7%-i (Neftçala rayonunun 18 kəndi və Salyan rayonunun 20 kəndi) Cənub Şərqi Şirvan düzündə, Şirvan (Hacıqabul rayonunun bütün kəndləri) və Muğan (Biləsuvar rayonunun bütün kəndləri) düzlərinin hər birində isə 16,9%-i yerləşir.

Onu da qeyd etmək lazımdır ki, Kür-Araz ovalığının aşağı hissələrində Hacıqabul, Salyan, Neftçala və s. rayonların ərazisində, həmçinin Şimal-Şərqi Şirvan və Salyan düzlərində geniş sahələrdə boş münbit torpaqlar olsa da şirin suyun çatışmaması bu ərazilərin məskunlaşmasına mane olur [8, s.506].

Kənd yaşayış məntəqələrinin düzənliklərdə yerləşməsi iqtisadi rayon üçün əlverişli şərait yaratmışdır. Belə ki, kəndlərin düzənlik ərazilərdə yerləşməsi kənd təsərrüfatının, nəqliyyatın və yaşayış məntəqələri arasında qarşılıqlı əlaqələrin inkişafında mühüm rol oynayır [14, s.133]. Yaşayış məntəqələri əsasən çayların, kanalların, inzibati rayon mərkəzlərinin, dəmir və avtomobil yollarının yaxınlığında yerləşmişdir.

Kənd yaşayış məntəqələrinin dəmir və avtomobil yolları kənarında yerləşməsi Hacıqabul, Salyan, Neftçala, rayonlarında daha qabarıq nəzərə çarpır [11, s.84].

İqtisadi rayon respublikanın əsas kənd təsərrüfatı rayonlarından biridir. Belə ki, düzənlik ərazilərdə kənd təsərrüfatı sahəsinin inkişaf etdirilməsi dağlıq iqtisadi rayonlardan daha ucuz və səmərəli olur. Bu da öz növbəsində kənd əhalisinin sıx məskunlaşmasına və kənd yaşayış məntəqələrinin böyüməsinə şərait yaradır. İqtisadi rayon əsasən pambıqçılıq (Biləsuvar), üzümçülük (Salyan) heyvandarlıq (Hacıqabul və Neftçala), quşçuluq (Hacıqabul), dənli və paxlalı bitkilər, meyvə və giləmeyvələr (bütün inzibati rayonlarda) və s. sahələr üzrə ixtisaslaşmışdır. Həmçinin Salyan, Neftçala və Hacıqabul inzibati rayonlarında balıqçılıq təsərrüfatı inkişaf etmişdir.

Bütün Aran regionunda olduğu kimi iqtisadi rayonun da düzənlikdə yerləşməsinin bir çox mənfi xüsusiyyətəri vardır. Belə ki, ərazidə meyilliyin az olması çay, kanal və kollektorlarda suyun axın sürətini azaldır ki, bu da su hövzələri ətrafında yerləşən ərazilərin şorlaşmasına və yeraltı suların səviyyəsinin qalxmasına səbəb olur. Həmçinin yaz və payız aylarında daşqınlar zamanı ətraf əraziləri su basır və yaşayış məntəqələri suyun altında qalır [9, s.78].

Şirvan-Salyan iqtisadi rayonunun kəndləri (145 kənd) -26-200 m yüksəklik arealında yerləşir. İqtisadi rayonun 116 kəndi və ya kəndlərinin 79,5%-i -26-0 m yüksəklik arealının payına düşür. Salyan və Neftçala rayonlarının kənd yaşayış məntəqələrinin tamamı, Biləsuvar (10 kənd), Hacıqabul (10 kənd) rayonlarının isə bir hissəsi bu arealda yerləşmişdir (Cədvəl 1). Bu arealda iqtisadi rayon üzrə kəndlərin orta böyüklüyü 1590 nəfər təşkil edir. İnzibati rayonlar üzrə bu göstərici ən aşağı Neftçala rayonunda 949 nəfər, ən yüksək isə Biləsuvar rayonunda 3200 nəfərdən çox olmuşdur. Digər inzibati rayonlarda kəndlərin orta böyüklüyü iqtisadi rayon göstəricisinə yaxındır. -26-0 metr arealında yerləşən ən böyük kəndlərə Biləsuvar rayonunun Xırmandalı (10,2 min nəfər), Neftçala rayonunun Aşağı Surra (5,6 min nəfər), Salyan rayonunun Arbatan (6,4 min nəfər), Kürsəngi (4,7 min nəfər) kəndlərini göstərmək olar [3].

***Cədvəl 1.***

*Şirvan-Salyan iqtisadi rayonunun kəndlərinin yüksəklik qurşaqları üzrə yerləşməsi*

| Yüksəklik qurşaqları | Biləsuvar | | Hacıqabul | | Neftçala | | Salyan | | İqtisadi rayon | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | kənd | əhali | kənd | əhali | kənd | əhali | kənd | əhali | kənd | əhali |
| -26 - 0 | 10 | 32689 | 10 | 15366 | 48 | 45583 | 48 | 91176 | 116 | 184814 |
| 0-200 | 15 | 46214 | 14 | 20881 | - | - | - | - | 29 | 67095 |
| 200-500 | - | - | 1 | 572 | - | - | - | - | 1 | 572 |
| Cəmi | 25 | 78903 | 25 | 36819 | 48 | 45583 | 48 | 91176 | 146 | 252481 |

**Mənbə:** Azərbaycan Respublika əhalisinin 2019-cu il siyahıyaalınmasının yekunları. I c. Əhalinin sayı, cins yaş tərkibi. Bakı: DSK, 2022, 682 s.

İqtisadi rayonun kəndlərinin 19,9%-i və ya 29 kənd 0-200 m yüksəklik arealında yerləşmişdir ki, bu kəndlərdə də 67,1 min nəfər kənd əhalisi məskunlaşmışdır. Bu arealda yerləşən kəndlər Biləsuvar (15 kənd) və Hacıqabul (14 kənd) rayonlarının ərazisinə daxildir. 0-200 metr yüksəklik arealında iqtisadi rayonun kənd əhalisinin 26,6%-i məskunlaşmışdır. Onların da 46,2 min nəfəri Biləsuvar, 20,8 min nəfəri Hacıqabul rayonunun payına düşür (cədvəl 1).

0-200 metr yüksəklik arealında yerləşən kəndlərin iqtisadi rayon üzrə orta böyüklüyü 2300 nəfərdir. Biləsuvar və Hacıqabul rayonlarında bu göstərici müvafiq olaraq 3080 və 1490 nəfər təşkil edir. Bu arealda yerləşən ən böyük kəndlərə Biləsuvar rayonunun Bəydili (6,7 min nəfər) və Ağalı (4,8 min nəfər), Hacıqabul rayonunun Navahı (3,4 min nəfər) və Rəncbər (3,5 min nəfər) kəndlərini misal göstərmək olar [3].

200-500 metr yüksəklik arealında iqtisadi rayonunun yalnız Qubalı kəndi (Hacıqabul rayonu) yerləşir. Bu kənd Şirvan düzü ilə Ləngəbiz silsiləsinin kəsişməsində Pirsaat çayının sahilində yerləşir.

İqtisadi rayonun ərazisi düzənlikdə yerləşdiyinə görə burada kiçik kəndlərin sayı azlıq təşkil edir. Kəndlərin 79,5%-nin əhalisi 500 nəfərdən çoxdur. Bu isə iqtisadi rayonda əhalisinin sayı artan kəndlərin üstünlük təşkil etdiyini göstərir. Belə ki, kənd məskunlaşma sistemində bütün dövrlərdə əhalisinin sayı çox olan kəndlərin sayı və demoqrafik potensialı artmış, orta və kiçik kəndlərin sayı və demoqrafik potensialı isə azalmışdır. Bu proses müasir dövrdə də davam etməkdədir. Xüsusilə düzənlik ərazilərdə yerləşən böyük kəndlərdə əhalinin artımı dağ kəndlərinə nisbətən daha intensiv xarakter daşıyır. Buna səbəb son 20 ildə qəbul edilmiş dövlət proqramları nəticəsində respublikanın təsərrüfat strukturunda baş verən müsbət dəyişikliklər, o cümlədən yaşayış məntəqələrində demoqrafik baza ilə iqtisadi baza arasında olan fərqin azaldılması və sosial infrastrukturun əsaslı sürətdə yaxşılaşdırılmasıdır [5, s.313].

1999-cu ildə iqtisadi rayonda əhalisi 100 nəfərə qədər olan kəndlərin sayı 7 kənd, onlarda məskunlaşan əhalinin sayı 0,4 min nəfər olmuşdur (Cədvəl 2). Bu kəndlərdən ikisi (Neftçala stansiyası və Qızqayıtdı) əhalisi 50 nəfərdən az olan kənd qrupuna daxildir. 2009-cu ildə əhalisi 100 nəfərə qədər olan kəndlərin sayı bir kənd azalaraq 6 kənd (onlarda olan əhalinin sayı 0,2 min nəfər) olmuşdur ki, onlardan da 4 kənd əhalisi 0-50 nəfər olan kənd qrupuna daxil idi. Keçən 10 il müddətində (1999-2009-cu illər) Hacıqabul rayonunun Pirsaatçay (37 nəfər) və Neftçala rayonunun Kürdili (30 nəfər) kəndlərinin əhalisi azalaraq bir alt qrupa keçmişdir. 2009-cu ildə Hacıqabul rayonunun Meyniman kəndinin əhalisi 0 qeydə alınmışdır. Buna səbəb həmin dövrdə Meyniman kəndinin Birinci Meyniman kəndinə birləşməsi olmuşdur. Onu da qeyd edək ki, Birinci Meyniman kəndi Kür çayına daha yaxın yerləşdiyi üçün daşqın hadisələrindən daim zərər görən kəndlər arasındadır.

2019-cu ildə iqtisadi rayonun əhalisi 100 nəfərə qədər olan kəndlərinin sayı 5 kənd, bu kəndlərdə məskunlaşan əhalinin sayı isə 0,2 min nəfər olmuşdur. Əhalisi 50 nəfərdən az olan 2 kənd (Kürdili və Qızqayıtdı) qeydə alınmışdır ki, onlarda da cəmi 3 nəfər əhali yaşayır. 2009-2019-cu illər ərzində əhalisi 100 nəfərə qədər olan kəndlərin sayı 1 kənd azalmışdır, həmin kəndin əhalisi artaraq bir üst qrupa keçmişdir.

Əhalisi 100-500 nəfər olan kəndlərin sayı 1999 və 2009-cu illər arasında 7 kənd azalaraq 37-dən 30-a düşmüşdür. Onlarda məskunlaşan əhalinin sayı isə 15,2% azalaraq 12,3 min nəfərdən 10,5 min nəfərə düşmüşdür. 2019-cu ildə

əhalisi 100-500 nəfər olan kəndlərin sayı 2009-cu illə müqayisədə 5 kənd (16,7%), əhalisi isə 2,0 min nəfər (19,2%) azalaraq 8,5 min nəfər olmuşdur.

Əhalisi 500-1000 nəfər olan kəndlərin sayı 1999-2009-cu illər ərzində 7 kənd (18,9%) azalaraq 37-dən 30-a, həmin müddət ərzində bu qrupa daxil olan kəndlərdə məskunlaşan əhalinin sayı isə 22,1% azalaraq 28,3 min nəfərdən 22,1 min nəfərə düşmüşdür. 2009-cu ildən sonra keçən müddət ərzində əhalisi 500-1000 nəfər olan kəndlərin sayı 1 kənd, əhalisinin sayı isə 0,5 min nəfər azalaraq müvafiq olaraq 29 kənd və 21,5 min nəfər olmuşdur.

***Cədvəl 2.***

*Şirvan-Salyan iqtisadi rayonunda kəndlərin əhalinin sayına görə qruplaşması*

| Kəndlərin qrupları | 1999 | | 2009 | | 2019 | |
|---|---|---|---|---|---|---|
| | kənd | əhali | kənd | əhali | kənd | əhali |
| 0-50 | 2 | 39 | 4 | 70 | 2 | 3 |
| 50-100 | 5 | 360 | 2 | 159 | 3 | 214 |
| 100-500 | 37 | 12348 | 30 | 10346 | 25 | 8454 |
| 500-1000 | 37 | 28329 | 30 | 22638 | 29 | 21468 |
| 1000-2000 | 35 | 48755 | 38 | 53558 | 39 | 55296 |
| 2000-3000 | 26 | 62804 | 23 | 56357 | 21 | 51467 |
| 3000-5000 | 11 | 41303 | 16 | 58853 | 23 | 87087 |
| 5000-dən çox | 1 | 7348 | 3 | 20072 | 4 | 28801 |
| Cəmi | 154 | 201286 | 146 | 222053 | 146 | 252790 |

**Mənbə:** Azərbaycan Respublika əhalisinin 1999, 2009, 2019-cu illər siyahıyaalınmasının yekunları. I c. Əhalinin sayı, cins yaş tərkibi. Bakı: DSK, 2000, 2010, 2022.

1999-cu ildə əhalisi 1000-2000 nəfər olan kənd qruplarının sayı 35 kənd, onlarda məskunlaşan əhalinin sayı 49,8 min nəfər olmuşdur [1]. 2009-cu ildə bu qrupdan olan kəndlərin sayı 4 kənd artaraq 39 kənd, onlarda olan əhalinin sayı isə 9,7% artaraq 54,0 min nəfər olmuşdur. 2019-cu ildə bu qrupda olan kəndlərin sayı bir kənd artmışdır (Cədvəl 2). Onlarda məskunlaşan əhalinin sayı cəmi 3,2% artaraq 55,3 min nəfərə çatmışdır. Bu isə on il müddətində hər kənddə əhalinin orta hesabla ümumi artımının 44 nəfər olduğunu göstərir. Bu göstərici əvvəlki on illikdə 126 nəfər təşkil etmişdir.

İqtisadi rayonda əhalisi 2000-3000 nəfər olan kəndlərin sayı 1999-cu ildə 26 kənd, onlarda məskunlaşan əhalinin sayı 62,8 min nəfər, 2009-cu ildə kəndlərin sayı 11,5% (3 kənd) azalaraq 23, onlarda olan əhalinin sayı 10,2% azalaraq 56,4 min nəfər olmuşdur. Bu göstəricilər 2019-cu ildə də müvafiq

olaraq azalmış kəndlərin sayı 21, onlarda məskunlaşan əhalinin sayı isə 51,5 min nəfər qeydə alınmışdır.

Tədqiq etdiyimiz 20 il müddətində əhalisi 3000-5000 nəfər aralığında olan kəndlərin sayı iqtisadi rayon üzrə daha çox artmışdır. Belə ki, 1999-cu ildə bu kəndlərin sayı 11 kənd, 2009-cu ildə 16 kənd və 2019-cu ildə 23 kənd olmuşdur. Həmçinin bu qrupa daxil olan kəndlərdə məskunlaşan əhalinin sayı da 20 il müddətində 2 dəfədən çox artaraq 87,1 min nəfərə çatmışdır. Onu da qeyd edək ki, iqtisadi rayonun ümumi kənd əhalisinin 34%-i bu qrupa daxil olan kəndlərdə məskunlaşmışdır.

Əhalisinin sayı 5000-dən çox olan kəndlərə nəzər saldıqda 1999-cu ildə iqtisadi rayon ərazisində 1 kənd, 2009-cu ildə 3 kənd, 2019-cu ildə isə bu qrupdan olan kəndlərin sayı 4 kənd olmuşdur ki, onlarda da 28,8 min nəfər əhali məskunlaşmışdır. Qeyd edək ki, 1999-2009-cu illər ərzində bu qrupda olan kəndlərin əhalisi 2,7 dəfə artdığı halda, sonrakı on illikdə (2009-2019) cəmi 1,4 dəfə artmışdır (Cədvəl 2).

Şirvan-Salyan iqtisadi rayonuna daxil olan inzibati rayonların kəndləri və kənd əhalisinin məskunlaşma xüsusiyyətləri arasında fərqlər mövcuddur. Bu fərqlər inzibati rayonların təbii və iqtisadi coğrafi mövqeyi, təsərrüfat strukturu, demoqrafik və sosial-iqtisadi inkişaf xüsusiyyətlərindən yaranır.

İqtisadi rayonda ən çox kənd (48 kənd və ya 32,9%) Salyan və Neftçala inzibati rayonlarının payına düşür. Hər iki rayonda kəndlərin sayı eyni olsa da, **Salyan** rayonunda kənd əhalisinin sayı Neftçala rayonundan 2 dəfə çoxdur (Cədvəl 5). İqtisadi rayonun kənd əhalisinin 36,2%-i Salyan rayonunda məskunlaşmışdır. Salyan rayonunda kəndlərin orta böyüklüyü 1905 nəfərdir. Bu isə iqtisadi rayon üzrə göstəricidən təqribən 170 nəfər çoxdur. İnzibati rayonda əhalisi 100 nəfərdən az olan kəndlər qeydə alınmamışdır.

Salyan inzibati rayonunda kəndlər rayonun qərb və cənub qərbində olmaqla, əsasən Kür çayının sahilində, Salyan şəhərinin və Osmanlı-Astara (hazırda Bakı-Astara) dəmir yolunun ətrafında yerləşmişdilər. Həmçinin Salyan inzibati rayonunun kənd məskunlaşma sisteminin formalaşmasında regionun əsas iqtisadi mərkəzi olan Şirvan şəhəri də cəlbedici rol oynayır.

1999-cu ildə kəndlərin 12,2%-i əhalisi 100-500 nəfər olan kənd qrupuna daxil idi. Onlarda inzibati rayonun 2,5% kənd əhalisi məskunlaşmışdır. Bu qrupdan olan kəndlərin sayı 2009-cu ildə azalaraq 4 kənd, onlarda məskunlaşan əhalinin sayı isə 27,1% azalaraq 1,3 min nəfər və ya inzibati rayonun kənd əhalisinin 1,6%-ni təşkil edirdi (cədvəl 3;4).

2019-cu ildə əhalisi 100-500 nəfər olan kəndlərin sayı 3 kənd (kəndlərin 6,3%-i) olmaqla, onlarda məskunlaşan əhalinin sayı 1,0 min nəfər (kənd əhalisinin 1,2%-i) təşkil etmişdir (Cədvəl 5).

***Cədvəl 3.***

*1999-cu ildə inzibati rayonlarda kəndlərin əhalisinin sayına görə qruplaşması (nəfərlə)*

| Kəndlərin qrupları | Biləsuvar | | Hacıqabul | | Neftçala | | Salyan | | İqtisadi rayon | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | kənd | əhali | kənd | əhali | kənd | əhali | kənd | əhali | kənd | əhali |
| 0-50 | - | - | - | - | 2 | 39 | - | - | 2 | 39 |
| 50-100 | - | - | 2 | 137 | 3 | 223 | - | - | 5 | 360 |
| 100-500 | 3 | 1156 | 8 | 3145 | 20 | 6226 | 6 | 1821 | 37 | 12348 |
| 500-1000 | 2 | 1187 | 5 | 3364 | 13 | 9341 | 17 | 14437 | 37 | 28329 |
| 1000-2000 | 6 | 8096 | 7 | 10393 | 11 | 14848 | 11 | 15418 | 35 | 48755 |
| 2000-3000 | 6 | 15163 | 6 | 14460 | 2 | 4444 | 12 | 28737 | 26 | 62804 |
| 3000-5000 | 7 | 24677 | - | - | 1 | 4101 | 3 | 12525 | 11 | 41303 |
| 5000-dən çox | 1 | 7348 | - | - | - | - | - | - | 1 | 7348 |
| Cəmi | 25 | 57627 | 28 | 31499 | 52 | 39222 | 49 | 72938 | 154 | 201286 |

**Mənbə:** Azərbaycan Respublika əhalisinin 1999-cu il siyahıyaalınmasının yekunları. I c. Əhalinin sayı, cins yaş tərkibi. Bakı: DSK, 2000, 565 s.

Salyan inzibati rayonunda 1999-cu ildə əhalisinin sayı 500-1000 nəfər olan kəndlərin xüsusi çəkisi 34,7%, onlarda məskunlaşan əhalinin xüsusi çəkisi 19,8% təşkil etmişdir. Bu göstərici müvafiq olaraq 2009-cu ildə 25,0% və 12,2%-ə düşmüşdür. Belə ki, kəndlərin sayı bu müddət ərzində 5 kənd, əhalisi isə 4,6 min nəfər azalmışdır (Cədvəl 3; 4).

Sonrakı on illikdə də əhalisi 500-1000 nəfər olan kəndlərin sayı və əhalisi azalmaqda davam etmişdir. 2019-cu ildə bu qrupa daxil olan kəndlərin sayı 7 kənd, onlarda məskunlaşan əhalinin sayı isə 5,5 min nəfərə düşmüşdür (Cədvəl 5).

İnzibati rayonda əhalisi 500-1000 və 1000-2000 nəfər olan kəndlərin sayı bütün illərdə üstünlük təşkil etmişdir. Belə ki, 1999-cu ildə əhalisi 500-1000 nəfər olan kəndlərin sayı (17 kənd) çox olsa da, 2019-cu ildə 1000-2000 nəfər olan kəndlərin sayı (20 kənd) daha çox olmuşdur.

1999-cu ildə əhalisi 1000-2000 nəfər olan kəndlərin sayı ümumi kəndlərin 22,4%-ni, kənd əhalisinin isə 21,1%-ni təşkil edirdi. 2009-cu ildə bu qrupdan olan kəndlərin sayı 17-ə (35,4%), əhalisinin sayı isə 24,0 minə (29,6%) çatmışdır.

2019-cu ildə bu kəndlərin sayı inzibati rayonun kəndlərinin 41,7%-ni, onlarda məskunlaşan əhali isə kənd əhalisinin 30,1%-ni təşkil etmişdir.

İnzibati rayonda əhalisinin sayı 2000-3000 olan kəndlərin sayı 1999-2009-cu illərdə 3 kənd azalaraq 12-dən 9-a düşmüşdür. Onlarda məskunlaşan

əhalinin sayı isə bu müddət ərzində 28,7 min nəfərdən 22,8% azalaraq 22,2 min nəfər olmuşdur.

2009-2019-cu illərdə Salyan rayonu üzrə əhalisi 2000-3000 nəfər olan kəndlərin sayı dəyişməsə də onlarda məskunlaşan əhalinin sayı 230 nəfər azalmışdır. Bu müddət ərzində Təzəkənd (2,3 min nəfər), Qızılağac (2,3 min nəfər) və Həsənli (2,1 min nəfər) kəndləri alt qrupdan bu qrupa, həmçinin Sarvan (3,1 min nəfər), Abadkənd (3,2 min nəfər) və Kərimbəyli (3,1 min nəfər) kəndlərinin əhalisi isə artaraq bir üst qrupa keçmişdir. Bu kəndlərin hər birinin əhalisi 300-400 nəfər arasında artmışdır. Həsənli və Qaraqaşlı kəndlərinin əhalisi isə müvafiq olaraq 127 və 105 nəfər artmışdır [2;3].

1999-cu ildə 3 kəndin əhalisinin sayı 3000-5000 nəfər arasında olmuşdur. Bu kəndlərdə inzibati rayonun 12,5 min nəfər əhalisi məskunlaşmışdır. Onlara Arbatan (4,8 min nəfər), Qarabağlı (4,3 min nəfər) və Kürsəng (3,4 min nəfər) kəndləri daxil idi. 2009-cu ildə bu kəndlərin sırasına Xıdırlı (3,2 min nəfər), Şorsulu (3,4 min nəfər) və Xələc (3,2 min nəfər) kəndləri əlavə olmaqla sayı 5 kəndə çatmışdır. Həmçinin Arbatan kəndinin əhalisi 957 nəfər artaraq bir üst qrupa keçmişdir.

Əhalisinin sayı 3000-5000 nəfər olan kəndlərin sayı hazırda 8 kənd təşkil edir ki, onlarda 29,1 min nəfər əhali məskunlaşmışdır. Bu kəndlərə Qarabağlı, Sarvan, Xələc, Abadkənd, Şorsulu, Xıdırlı, Kərimbəyli, Kürsəng daxildir. Bu kəndlər həm də inzibati rayonun böyük kəndləri sayılır.

Salyan inzibati rayonunda əhalisi 5000-dən çox olan 1 kənd (Arbatan 6,4 min nəfər) mövcuddur.

İnzibati rayonun əhalisinin sayına görə ən kiçik kəndi Piratman (149 nəfər) kəndidir. Onu da qeyd edək ki, 2009-2019-cu illər ərzində inzibati rayonda Gomuşçu (39 nəfər azalma), Peyk (50 nəfər azalma) və Seyidsadıqlı (72 nəfər azalma) kəndlərində əhalinin sayının azaldığı müşahidə olunmuşdur.

İnzibati rayonun bir neçə kəndinin adları müxtəlif dövrlərdə dəyişdirlmişdir. Onlara Abadkənd (əvvəlki adı Cındırlı 1954), Çadırlı (əvvəlki adı Şatrovka 2009), Ərəbqardaşbəyli (əvvəlki adı Komsomol 1995), Xələc (əvvəlki adı İsrafilbəyli 1954), Yenikənd (əvvəlki adı Yetimlər 1954), Yeni Uluxanlı (əvvəlki adı Aydıngün 2008) [4, s.459-464].

**Neftçala** inzibati rayonu kənd əhalisinin (45,6 min nəfər və ya 18,0%) çoxluğuna görə iqtisadi rayonda üçüncü yeri tutur [6, s.82]. Bu rayonun tərkibinə iqtisadi rayonun kəndlərinin 32,9%-i daxildir. Kəndlərin orta böyüklüyü 949 nəfərdir. Neftçala inzibati rayonunun kənd yaşayış məntəqələri rayonun şimal hissəsində olmaqla, Kür çayının hər iki sahilində yerləşmişdilər.

1999-cu ildə əhalisi 500-dən az olan kəndlər inzibati rayonun kəndlərinin 48,1%-ni, burada məskunlaşan əhali isə 16,5% təşkil edirdi. 2009-

cu ildə bu qrupdan olan kəndlərin sayı 20,0% azalaraq 41,7%-ə düşmüşdür. Onlarda məskunlaşan əhalinin xüsusi çəkisi 13,2% təşkil edirdi. Bu qrupdan olan Şirvanlı, Yeniqışlaq kəndlərinin əhalisi artaraq üst qrupa keçmiş, Mirqurbanlı kəndi isə Həsənabad qəsəbəsinin inzibati ərazisinə daxil olmuşdur. 2019-cu ildə əhalisi 500-ə qədər olan kəndlərin sayı dəyişməsə də əhalinin sayı 113 nəfər (2,0%) azalmışdır. Hazırda Kürdili (1nəfər) və Qızqayıt (2 nəfər) kəndlərində cəmi 3 nəfər əhali yaşayır.

İnzibati rayonun əhalisinin 54,9%-i, kəndlərinin isə 47,9%-i əhalisi 500-2000 nəfər olan kənd qruplarının payına düşür (cədvəl 5).

1999-cu ildə inzibati rayonda əhalisi 500-2000 nəfər olan kəndlərin xüsusi çəkisi 46,1%, burada məskunlaşan əhalinin xüsusi çəkisi isə 61,7% idi. Sonrakı on illikdə bu qrupdan olan kəndlərin sayı dəyişməsə də inzibati rayonun ümumi kəndlərinin sayı (4 kənd) azaldığına görə xüsusi çəkisi dəyişərək 50,0% təşkil etmişdir. Onlarda olan əhalinin isə xüsusi çəkisi 58,9%-ə düşmüşdür. Lakin bu qruplarda olan əhalinin inzibati rayonun ümumi kənd əhalisi arasında xüsusi çəkisinin azalmasına baxmayaraq onlarda məskunlaşan əhalinin sayı 362 nəfər və ya 1,5% artmışdır (2009-cu il). Bu qrupda bir kəndin (Aşağı Qaramanlı) əhalisinin artaraq üst qrupa keçməsi və yuxarıda qeyd edildiyi kimi iki kəndin (Şirvanlı və Yeniqışlaq) alt qrupdan bu qrupa keçməsi, bununla yanaşı Mirqurbanlı kəndinin qəsəbəyə çevrilməsi nəticəsində dəyişiklik olmuşdur.

2019-cu ildə bu qrupa daxil olan kəndlərin sayı bir kənd azalaraq (Xol Qaraqaşlı) 23 kənd olmuşdur. 2009-2019-cu illərdə bu qrupdan olan Kürkənd, Dördlər, Kür Qarabucaq, Qədimkənd, Boyat kəndlərinin əhalisi 200 nəfərdən çox artmışdır.

1999-cu ildə əhalisinin sayı 2000-3000 olan kəndlərə Xol Qarabucaq və Qırmızıkənd daxil idi. Onların hər birində 2,2 min nəfər əhali məskunlaşmışdır. 2009-cu ildə isə Aşağı Qaramanlı kəndinin (əhalisi 2,1 min nəfər) bu qrupa daxil olması ilə kəndlərin sayı 3 kənd olmuşdur.

2019-cu ildə inzibati rayonda əhalisinin sayı 2000-3000 olan kənd qrupunda 4 kənd (Aşağı Qaramanlı, Xol Qarabucaq, Xol Qaraqaşlı, Qırmızıkənd) qeydə alınmışdır ki, bu kəndlərdə də kənd əhalisinin 21,2%-i məskunlaşmışdır (cədvəl 5).

İnzibati rayonun əhalisinin sayı 3000-5000 olan kəndlərinin sayı əvvəlki illərdə 1 kənd (Aşağı Surra) olmuşdur. 2019-cu ildə isə bu qrupa daxil olan kənd qeydə alınmamışdır. Belə ki, Aşağı Surra kəndinin əhalisi artaraq bu qrupdan çıxmış və əhalisi 5000-dən çox olan kənd qrupuna daxil olmuşdur. Aşağı Surra kəndi inzibati rayonda əhalisinin sayına (5490 nəfər) görə ən böyük kənd hesab olunur.

2009-2019-cu illər ərzində inzibati rayonda əhalisi azalan kəndlərə Birinci Qaralı (17 nəfər azalma), Ərəbqardaşbəyli (227 nəfər azalma), Qırmızı Şəfəq (196 nəfər azalma), Sarıqamış (36 nəfər azalma), Yeniqışlaq (90 nəfər azalma), Sahiloba (7 nəfər azalma), Tatarməhlə (49 nəfər azalma), Abasalılı (49 nəfər azalma) və Uzunbabalı (20 nəfər azalma) daxil olmuşdur [2;3].

İnzibati rayonda adları dəyişilmiş kəndlərə Dalğalı (əvvəlki adı Prorva, 1998), Kürkənd (əvəlki adı Novovasilyevka, 2003), Sahiloba (əvvəlki adı Saratovka, 2007), Sübh (əvvəlki adı Kürağzı, 1966) və Şirvanlı (əvvəlki adı Jarski, 1998) daxildir [4. S.459-464].

***Cədvəl 4.***

*2009-cu ildə inzibati rayonlarda kəndlərin əhalisinin sayına görə qruplaşması (nəfərlə)*

| Kəndlərin qrupları | Biləsuvar | | Hacıqabul | | Neftçala | | Salyan | | İqtisadi rayon | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | kənd | əhali | kənd | əhali | kənd | əhali | kənd | əhali | kənd | əhali |
| 0-50 | - | - | 2 | 37 | 2 | 33 | - | - | 4 | 70 |
| 50-100 | - | - | - | - | 2 | 159 | - | - | 2 | 159 |
| 100-500 | 2 | 694 | 8 | 3004 | 16 | 5319 | 4 | 1329 | 30 | 10346 |
| 500-1000 | 3 | 2136 | 2 | 1312 | 13 | 9306 | 12 | 9884 | 30 | 22638 |
| 1000-2000 | 5 | 7267 | 5 | 7043 | 11 | 15245 | 17 | 24003 | 38 | 53558 |
| 2000-3000 | 5 | 12806 | 6 | 14368 | 3 | 6996 | 9 | 22187 | 23 | 56357 |
| 3000-5000 | 8 | 30184 | 2 | 6183 | 1 | 4618 | 5 | 17868 | 16 | 58853 |
| 5000-dən çox | 2 | 14302 | - | - | - | - | 1 | 5770 | 3 | 20072 |
| Cəmi | 25 | 67389 | 25 | 31947 | 48 | 41676 | 48 | 81041 | 146 | 222053 |

**Mənbə:** Azərbaycan Respublika əhalisinin 2009-cu il siyahıyaalınmasının yekunları. I c. Əhalinin sayı, cins yaş tərkibi. Bakı: DSK, 2010, 629 s.

**Biləsuvar** inzibati rayonu iqtisadi rayonda kənd əhalisinin sayına (78,9 min nəfər və ya 31,2%) görə ikinci yeri, kəndlərin sayına (25 kənd və ya 17,1%) görə isə üçüncü yeri tutur [6, s.82]. Kəndlərin orta böyüklüyü 3156 nəfər olmaqla iqtisadi rayon üzrə ən yüksək göstəriciyə malikdir.

Biləsuvar inzibati rayonunun kənd yaşayış məntəqələri rayonun mərkəz və cənub hissəsində olmaqla, əsasən Yuxarı Muğan (Əzizbəyov) kanalının aşağı axarında və Biləsuvar şəhərinin yaxınlığında yerləşmişdilər.

1999-cu ildə əhalisi 500-dən az olan kəndlər inzibati rayonun kəndlərinin 12,0%-ni, onlarda məskunlaşan əhali isə 2,0% təşkil edirdi. Bu kəndlərə Yuxarı Ağalı (395 nəfər), Muğan (281 nəfər) və Aranlı (480 nəfər)

daxil idi. 2009-cu ildə bu qrupdan olan 2 kəndin (Yuxarı Ağalı və Aranlı) əhalisi artaraq bir üst qrupa keçmişdir. Həmin ildə əhalisi 500 nəfərdən az Arazbarı (344 nəfər) və Muğan (350 nəfər) kəndləri qeydə alınmışdır. Onlarda məskunlaşan əhalinin xüsusi çəkisi 1,0% təşkil edirdi.

2019-cu ildə əhalisi 500-ə qədər olan kəndlərin sayı dəyişməyib, onlarda məskunlaşan əhalinin sayı isə cəmi 168 nəfər artmışdır. Bu isə 10 il müddətində əhalinin Muğan kəndində 109 nəfər, Arazbarı kəndində 59 nəfər artması deməkdir (cədvəl 4;5). Onu da qeyd edək ki, inzibati rayonda əhalisi 100 nəfərdən az kənd qeydə alınmamışdır.

1999-cu ildə inzibati rayonda əhalisi 500-1000 nəfər olan 2 kənd (Arazbarı və Çinarlı) qeydə alınmışdır ki, onlarda da məskunlaşan əhalinin xüsusi çəkisi 2,1% idi. 2009-cu ildə bu qrupda olan kəndlərin sayı və əhalisinin xüsusi çəkisi artmış, müvafiq olaraq 3 kənd və 2,1 min nəfərə çatmışdır. Belə ki, 10 il müddətində Yuxarı Ağalı kəndinin əhalisi 371 nəfər, Aranlı kəndinin əhalisi isə 111 nəfər artaraq alt qrupdan bu qrupa, Arazbarı kəndinin əhalisi isə 188 nəfər azalaraq alt qrupa keçmişdir.

2019-cu ildə bu kəndlərin sayı dəyişməsə də əhalisi 414 nəfər artmışdır. Bu kəndlərə Yuxarı Ağalı, Çinarlı və Aranlı kəndləri daxildir. Onlarda məskunlaşan əhalinin xüsusi çəkisi 3,2% təşkil edir (cədvəl 5).

İnzibati rayonda əhalisi 1000-3000 nəfər olan kəndlərin sayı və onlarda məskunlaşan əhali önəmli yer tutur. 1999-cu ildə Bu qrupdan olan kəndlər inzibati rayonun kəndlərinin 48,0%-ni, kənd əhalisinin isə 40,4%-ni özündə toplamışdır. 2009-cu ildə əhalisi 1000-3000 nəfər olan kəndlərin sayı 2 kənd azalaraq 10, əhalisinin sayı 13,7% və ya 3186 nəfər azalaraq 20,1 min nəfər olmuşdur. Azalmaya səbəb Amankənd və Zəhmətabad kəndlərinin əhalisinin artaraq bir üst qrupa keçməsidir.

2019-cu ildə də bu kəndlərin sayı azalmış 28,0%-ə düşmüşdür. Onlarda məskunlaşan əhalinin sayı inzibati rayonun kənd əhalisinin 17,7%-ni təşkil edir. Bu qrupda kəndlərin sayının azalması Günəşli, Aşağı Cürəli və Səmədabad kəndlərinin bu qrupdan bir üst qrupa keçməsi ilə əlaqədardır. Əhalisi 1000-3000 olan kənd qrupuna Ağayrı (2,9 min nəfər), Çaylı (2,6 min nəfər), Dərvişli (1,7 min nəfər), Əliabad (1,4 min nəfər), Yuxarı Cürəli (1,5 min nəfər), Təzəkənd (1,8 min nəfər) və Ovçubərə (2,0 min nəfər) kəndləri daxildir.

İnzibati rayonun əhalisinin 56,5%-i, kəndlərinin isə 44,0%-i əhalisi 3000-5000 nəfər olan qrupda toplanmışdır (2019 – cu il). Kənd əhalisinin yarıdan çoxunun məskunlaşdığı bu kəndlərin sayı 20 il müddətində 4 kənd artaraq 11 kənd olmuşdur. Bu kəndlərə Zəhmətabad (3,9 min nəfər), Nəsimi (4,5 min nəfər), Nərimankənd (4,2 min nəfər), İsmətli (3,9 min nəfər), Əsgərabad (4,3 min nəfər) və s daxildir.

Biləsuvar inzibati rayonunda 1999-cu ildə əhalisinin sayı 5000-dən çox olan 1 kənd (Xırmandalı - əhalisi 7348 nəfər), 2009 və 2019-cu illərdə isə 2 kənd olmuşdur. Onlara Xırmandalı (10243 nəfər) və Bəydili (6694 nəfər) kəndləri aiddir. İnzibati rayonun əhalisinin sayına görə ən böyük kəndi Xırmandalı, ən kiçik kəndi Arazbarı (403 nəfər) hesab olunur.

Biləsuvar inzibati rayonunun adları dəyişilmiş kəndlərinə Aranlı (əvvəlki adı Tatyanovka, 1991), Bağbanlar (əvvəlki adı Arxangelovka, 1991), Çaylı (əvvəlki adı Fioletovka, 2005), Çinarlı (əvvəlki adı Novoqrajdanovka, 1991), Günəşli (əvvəlki adı Kirovka, 2005), İsmətli (əvvəlki adı Konstantinovka, 1992), Nəsimi (əvvəlki adı Novotroitskoye, 1991), Ovçubərə (əvvəlki adı Klubinka, 1998) daxildir [4, s.459-464].

***Cədvəl 5.***

*2019-cu ildə inzibati rayonlarda kəndlərin əhalisinin sayına görə qruplaşması (nəfərlə)*

| Kəndlərin qrupları | Biləsuvar | | Hacıqabul | | Neftçala | | Salyan | | İqtisadi Rayon | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | kənd | əhali | kənd | əhali | kənd | əhali | kənd | əhali | kənd | əhali |
| 0-50 | - | - | - | - | 2 | 3 | - | - | 2 | 3 |
| 50-100 | - | - | 1 | 52 | 2 | 162 | - | - | 3 | 214 |
| 100-500 | 2 | 862 | 4 | 1357 | 16 | 5233 | 3 | 1002 | 25 | 8454 |
| 500-1000 | 3 | 2550 | 8 | 5349 | 11 | 8091 | 7 | 5478 | 29 | 21468 |
| 1000-2000 | 4 | 6492 | 3 | 4306 | 12 | 16928 | 20 | 27570 | 39 | 55296 |
| 2000-3000 | 3 | 7494 | 5 | 12340 | 4 | 9676 | 9 | 21957 | 21 | 51467 |
| 3000-5000 | 11 | 44568 | 4 | 13415 | - | - | 8 | 29104 | 23 | 87087 |
| 5000-dən çox | 2 | 16937 | - | - | 1 | 5490 | 1 | 6374 | 4 | 28801 |
| Cəmi | 25 | 78903 | 25 | 36819 | 48 | 45583 | 48 | 91485 | 146 | 252790 |

**Mənbə:** Azərbaycan Respublika əhalisinin 2019-cu il siyahıyaalınmasının yekunları. I c. Əhalinin sayı, cins yaş tərkibi. Bakı: DSK, 2022. 682 s.

Şirvan-Salyan iqtisadi rayonunun əhalisinin 14,6%-i **Hacıqabul** rayonunun 25 kəndində məskunlaşmışdır. Hacıqabul rayonu iqtisadi rayonda kənd əhalisinin sayına (14,5% və ya 36,8 min nəfər) görə dördüncü yeri tutur [6, s.82]. Kəndlərin sayı (25 kənd və ya 17,1%) isə Biləsuvar inzibati rayonu ilə eynilik təşkil edir. Kəndlərin orta böyüklüyü 1472 nəfər olmaqla iqtisadi rayon səviyyəsindən aşağıdır. Qeyd edək ki, iqtisadi rayonda bu göstərici 1731 nəfərdir [3].

Hacıqabul inzibati rayonunda kənd yaşayış məntəqələrinin əsas hissəsi rayonun cənub-qərbində Kür çayının sol sahilində və şimalında Pirsaatçayın

sahilində yerləşmişdilər. Hacıqabul rayonunun kənd məskunlaşmasının formalaşmasında Şirvan şəhəri də cəlbedici rol oynayır.

1999-cu ildə inzibati rayonun kənd əhalisinin 10,4%-i əhalisi 100-500 nəfər olan kəndlərdə məskunlaşmışdır. Bu kəndlərin sayı 10 olmaqla inzibati rayonun kəndlərinin 35,7%-ni təşkil edirdi. 2009-cu ildə də bu qrupdan olan kəndlərin sayı dəyişilməmişdir. Onlarda məskunlaşan əhali isə 241 nəfər azalmışdır (orta hesabla 10 il müddətində hər kənddə 24 nəfər).

2019-cu ildə əhalisi 500-ə qədər olan kəndlərin sayı 5 kənd olub onlarda 1409 nəfər əhali məskunlaşmışdır. Bu da inzibati rayonun kənd əhalisinin 3,8%-ni təşkil edir. Onlara Ələtli (467 nəfər), Ağacanlı (297 nəfər), Bürvənd (191 nəfər), Tağılı (402 nəfər) və Pirsaat (52 nəfər) kəndləri daxildir. Onu da qeyd edək ki, Pirsaat inzibati rayonun əhalisinin sayına (52 nəfər) görə ən kiçik kəndidir.

1999-cu ildə inzibati rayonda əhalisi 500-2000 nəfər olan kəndlərin xüsusi çəkisi 42,8%, bu kəndlərdə məskunlaşan əhalinin xüsusi çəkisi isə 43,7% idi. 2009-cu ildə bu qrupda olan kəndlərin sayı azalmış (7 kənd), əhalisinin xüsusi çəkisi 26,2%-ə çatmışdır. Onlarda məskunlaşan əhalinin sayı 39,3% azalmışdır. Azalmanın səbəbi bu qurupdan olan Atbulaq, Birinci Udullu və Kolanı kəndlərinin əhalisinin artaraq bir üst qurupa keçməsi, Padar kəndinin qəsəbəyə çevrilməsidir. Həmçinin 2009-cu ildə Meyniman kəndində əhali qeydə alınmamışdır.

2019-cu ildə kəndlərin sayı 11 kənd olmuşdur. Onlarda məskunlaşan əhali on il müddətində 15,6% artmışdır. Bu dövrdə Qubalı, Şorbaçı, Birinci Paşalı və İkinci Meyniman kəndlərinin əhalisinin sayı artaraq bir alt qrupdan bu qurupa keçmişdir. Həmçinin Meyniman kəndi (əhalisi 984 nəfər) yenidən bərpa olunmuşdur.

1999 və 2009-cu illərdə əhalisi 2000-3000 nəfər olan kəndlərin sayı 6 kənd olmuşdur. Kəndlərin sayı dəyişilməsə də onlarda məskunlaşan əhalinin sayı 1999-cu ildəki 14,5 min nəfərdən 0,6% və ya 92 nəfər azalaraq 2009-cu ildə 14,4 min nəfərə çatmışdır.

2019-cu ildə bu kəndlərin sayı 5 kənd olmuş və inzibati rayonun kəndlərinin 20,0%-ni, kənd əhalisinin isə 33,5%-ni özündə toplamışdır (cədvəl 5). Onlara Kolanı (2,3 min nəfər), Atbulaq (2,4 min nəfər), Qarasu (2,9 min nəfər), Birinci Udullu (2,4 min nəfər), Talış (2,3 min nəfər) və s. misal göstərmək olar.

1999-cu ildə Hacıqabul inzibati rayonunun ərazisində əhalisinin sayı 3000-dən çox olan kənd mövcud olmamışdır. 2009-cu ildə isə əhalisinin sayı 3000-5000 nəfər olan 2 kənd Rəncbər (3,0 min nəfər) və Navahı (3,1 min nəfər) daxil idi. Sonrakı illərdə bu qurupdan olan kəndlərin sayı 4 kənd, onlarda

məskunlaşan əhalinin sayı isə 13,4 min nəfər təşkil edirdi (2019). Bu kəndlərə Abdulabad (3,5 min nəfər), Qubalıbalaoğlan (3,0 min nəfər), Navahı (3,4 min nəfər) və Rəncbər (3,5 min nəfər) daxildir.

Hacıqabul inzibati rayonunun əhalisinin sayına görə ən böyük kəndi Abdulabad (3542 nəfər) ən kiçik kəndi isə Pirsaatçay (52 nəfər) kəndidir.

İnzibati rayon ərazisində cəmi bir kəndin (Kalinovka-Meyniman, 1999) adında dəyişiklik edilmişdir [4, s.459-464].

Hacıqabul və Biləsuvar inzibati rayonlarında əhalisi azalan kəndlər qeydə alınmamışdır.

**Nəticə**

Yuxarıda qeyd olunanları nəzərə alaraq belə nəticəyə gələ bilərik ki, inzibati rayon respublikanın şərqində, Xəzər dənizinin sahilində yerləşməklə əlverişli təbii və iqtisadi coğrafi şəraitə malikdir. Təbii şəraitinə görə relyefi əsasən düzənliklərdən ibarətdir. İqtisadi rayon əsasən iki yüksəklik arealında yerləşir. Kəndlərin 79,4%-i -26-0 m yüksəklik arealında yerləşməklə ən böyük yaşayış məntəqələrini özündə toplamışdır. Kənd yaşayış məntəqələrinin 19,9%-i isə 0-200 m yüksəklik arealında yerləşmişdir. İqtisadi rayonda yalnız bir kənd (Hacıqabul rayonunun Qubalı kəndi) 200 m-dən yüksəkdə yerləşmişdir.

Əhalisinin sayı 500-1000 (29 kənd) və 1000-2000 (39 kənd) nəfər olan kəndlər iqtisadi rayonun kəndlərinin 45,9%-ni təşkil edir. Ümumiyyətlə, iqtisadi rayonun bütün ərazisi düzənlikdə yerləşdiyinə görə əsasən su mənbələrinə, magistral yollara və şəhər mərkəzlərinə yaxın yerləşən kəndlər daha yaxşı inkişaf etmişdir.

Respublikanın mühüm nəqliyyat yolları iqtisadi rayonun ərazisindən keçdiyinə görə ətrafda yaşayış məntəqələrinin formalaşmasına öz təsirini göstərir. Belə ki, Bakı-Şirvan-Lənkəran istiqamətində uzanan əsas magistral yollar iqtisadi rayonun ərazisindən keçir. Bu yol həm respublikanın cənub hissəsini, həmdə İranla həmsərhəd olan rayonların nəqliyyat əlaqələrini təmin etməklə yaxınlıqda yerləşən yaşayış məntəqələrində kənd təsərrüfatının, xidmət sahələrinin və sənayenin inkişafında əsaslı rol oynayır. Bununla yanaşı Bakı-Astara dəmiryolu da kəndlərin yerləşməsində önəmli rol oynayır.

Şirvan və Salyan şəhərləri iqtisadi rayonun əsas mərkəzləri sayılır. Şirvan şəhəri regionun iqtisadi mərkəzi olmaqla yanaşı, respublikanın da əsas energetika mərkəzlərindən biridir. Salyan şəhəri isə iqtisadi rayonun əsas inzibati mərkəzi sayılır. Adlarını çəkdiyimiz şəhərlər iqtisadi rayon ərazisində olan kənd yaşayış məntəqələrinin məskunlaşma sisteminin formalaşmasına kömək edən mərkəz rolunu oynayırlar. Şirvan şəhəri əsasən Hacıqabul və

Salyan rayonlarında kənd məskunlaşma sisteminin formalaşmasında və inkişafında cəlbedici rol oynayır.

Bütün inzibati rayonlarda (Biləsuvar istisna olmaqla) kənd əhalisinin məskunlaşmasında və kəndlərin formalaşmasında Kür çayı əsas cəlbedici amil rolunu oynayır. Biləsuvar inzibati rayonunda isə Biləsuvar şəhəri və Əzizbəyov kanalı kənd məskunlaşmasında və inkişafında əsaslı rol oynayır.

Əhalisinin sayı 2000-5000 nəfər olan kəndlərdə (44 kənd) iqtisadi rayonun kənd əhalisinin yarıdan çoxu (54,8%-i) məskunlaşmışdır. Bu kəndlər əsasən əkinçilik sahələri üzrə ixtisaslaşmışdır. Bu kəndlərin əsas hissəsi Salyan və Biləsuvar rayonları ərazisində olmaqla rayon mərkəzinə və Kür çayına yaxın yerləşmişdilər.

İqtisadi rayonda əhalisinin sayı 5000-dən çox cəmi 4 kənd varki, onların da ikisi Biləsuvar, ikisi isə Salyan rayonunun payına düşür. Bu kəndlər iqtisadi rayonun ən böyük kəndləri sayılır. Onlara Xırmandalı (10,2 min nəfər), Bəydili (6,7 min nəfər), Arbatan (6,4 min nəfər) və Aşağı Surra (5,5 min nəfər) kəndləri daxildir. İqtisadi rayonun əhalisinin sayına görə ən kiçik kəndi Neftçala rayonunun Qızqayıtdı (2 nəfər) kəndidir. Neftçala rayonunun Kürdili kəndində isə əhali yaşamır. Ümumiyyətlə, iqtisadi rayon ərazisində 2009-2019-cu illərdə 12 kəndin əhalisi azalmışdır ki, bu kəndlər də Salyan (3 kənd) və Neftçala (9 kənd) inzibati rayonlarının ərazisində yerləşmişdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası əhalisinin 1999-cu il siyahıyaalınmasının yekunları. I c. Əhalinin sayı, cins yaş tərkibi. Bakı: DSK, 2000, 565 s.
2. Azərbaycan Respublika əhalisinin 2009-cu il siyahıyaalınmasının yekunları. I c. Əhalinin sayı, cins yaş tərkibi. Bakı: DSK, 2010, 629 s.
3. Azərbaycan Respublika əhalisinin 2019-cu il siyahıyaalınmasının yekunları. I c. Əhalinin sayı, cins yaş tərkibi. Bakı: DSK, 2022, 682 s.
4. Azərbaycan Respublikasının inzibati ərazi bölgüsü. Bakı, 2013, 487 s.
5. Azərbaycan Respublikasında kəndlərin demoqrafik inkişafı və kənd əhalisinin məskunlaşması problemləri. Bakı, 2021, 552 s.
6. Azərbaycanın Demoqrafik göstəriciləri 2022. Bakı, DSK, 2023, 589s.
7. Aran iqtisadi rayonunun demoqrafik inkişaf problemləri və əhalinin məskunlaşması. Bakı, “Region Press” MMC, 2022, 350 s.
8. *Eminov Z.N.* Azərbaycanın əhalisi. Bakı, Çıraq, 2005, 558 s.
9. *Əliyeva S.Q.* Kür-Araz ovalığında təbii-dağıdıcı hadisələrin məskunlaşmaya təsiri. Bakı, “Avropa” nəşriyyatı, 2018. 216 s.
10. *Hacızadə Ə.M.* Azərbaycan SSR-in əhalisi və onun məskunlaşması. Bakı, 1965. 216 s.

11. *Kərimov R.N.* Aran iqtisadi rayonunda kənd əhalisinin məskunlaşması problemləri. AMEA-nın "Xəbərləri", Yer Elmləri seriyası, №4 , Bakı, 2008. s. 83-87.
12. *Mehrəliyev E.Q., Əyyubov N.H., Sadıqov M.O.* Azərbaycan SSR –də əhalinin məskunlaşması məsələləri. Bakı. Elm, 1988, 196 s.
13. *Müseyibov M.A., Quliyev R.Y.* Azərbaycanın geomorfologiyası. Bakı, "Avropa". 2018, 330 s.
14. *Tahirova H.M.* Mərkəzi Aran iqtisadi rayonunun kəndləri və kənd əhalisinin məskunlaşması Ümummilli lider H. Ə. Əliyevin 100 illik yubileyinə həsr olunmuş Coğrafiyanın müasir problemləri: Elm və təhsilin inteqrasiyası II beynəlxalq elmi-praktiki konfrans I cild Bakı 2023. s. 132-143
15. *Геокчайский Ш.Ю.* Сельское расселения и его преовразование. Баку. Азернешр, 1987, 143 с.
16. *Huseynova B.A.* Contemporary Problems Of Settlement In The Ethnic Plain Villages Of The Northwestern Regions Of Azerbaijan (On The Example Of The Balakan Administrative District). Geography, Environment, Sustainability, 2024), №3 (17), pp.35-46 https://DOI-10.24057/2071-9388-2024-3102

Redaksiyaya daxil olub 03.02.2025